**İyulun 3-də Avro – 2020-nin 1/4 final matçları başa çatdı və yarımfinalın son iki cütü də məlum oldu. Danimarka Bakıda Çexiyanı, İngiltərə isə Romada Ukraynanı məğlub etdi. İki gün sonra bu iki komanda finala vəsiqə uğrunda Londonun “Uembli” stadionunda mübarizə aparacaq.**

Avro – 2020-nin Bakı qarşılaşmasının başlanmasına xeyli vaxt qalmış Danimarka azarkeşləri Azərbaycan paytaxtının mərkəzi küçələrində sanki Olimpiya stadionuna çağırış təbili çalır və şəhərdəki futbol əhval-ruhiyyəsinə xüsusi rəng qatırdılar. Çılğın skandinaviyalılar şəhər sakinləri ilə üzüzə gələndə arada da əllərinin baş barmaqlarını yuxarı qaldırıb “Baku, Azerbaijan very good!” – deyə bu şəhərdən, ölkəmizdən razı qaldıqlarını məmnunluqla ifadə edirdilər.

# “Baku, Azerbaijan very good!”



## Çılğın danimarkalılar Bakıdan razı və qalib ayrıldılar

Matçın başlamasına bir saat qalmış bir çox idman kanalları Bakıdakı futbol bayram ab-havasına danimarkalıların reaksiyasını milyonlarla tamaşaçıya çatdırmaq üçün əvvəlcə Danimarkanın paytaxtına bağlandılar. Bakıya gəlmək imkanı olmayan minlərlə sakin Bakıda Olimpiya Stadionunda baş tutacaq Daimarka – Çexiya qarşılaşmasını izləmək üçün Kopenhagenin mərkəzi meydanına axışır və burada qoyulmuş nəhəng televiziya ekranı qarşısında özlərinə



münasib yer tuturdular.

Qarşılaşma başladı və ekspertlərin tam favorit hesab etdikləri Kasper Yulmanın yetirmələri elə ilk dəqiqələrdən hücuma atıldılar. Çexlər sanki ağır və üzücü səfərdən yorulmuş kimi görünürdülər və bunu duyan skadinaviyalılar artıq 5-ci dəqiqədə hesabı açdılar. Yens Stryuger-Larsen küncdən qapının qarşısına hava ötürməsi etdi və tam nəzarətsiz qalan Tomas Dileyn başı ilə qapını dəqiq nişan aldı. Bir neçə dəqiqə sonra Mikkel Damsqor qolkiper Tomaş Vaslik ilə randevuya çıxdı, lakin çexiya millisinin qapıçısını aldatmaq mümkün olmadı.

10-cu dəqiqədən sonra çexiyalılar oyunda təşəbbüsü müəyyən qədər ələ almağa çalışdılar. Lakin danimarkalılar dayanmaq bilmir və rəqibi əks-hücumda yaxalayıb təhlükəli vəziyyətlər yaradırdılar. Belə vəziyyətlərdən birində Stryuger-Larsen növbəti dəfə Dileyniyə əla ötürmə etdi. Amma Danimarkalı oyunçu 100 faizli qol vəziyyətini reallaşdırıb dubl etməyi bacarmadı. 36-cı dəqiqədə Damsqor güclü zərbə ilə Vasliki yenidən sınağa çəkdi. Bu dəfə də çexiyalı qapıçı etibarlı oynadı. Çox çəkmədi ki, skandinaviyalıların təzyiqi öz nəticəsini verdi. Oyunun 42-ci dəqiqəsində Yoakim Mele sol cinahdan qapının qarşısına əla ötürmə etdi və Kasper Dolberq bir toxunuşla topu tora qovuşdurdu. Danimarka 2, Çexiya 0.

İkinci hissənin ilk dəqiqələrindən çexiya ciddi cəhdlərlə üstünlüyü ələ almağa başladı. Artıq 46-cı dəqiqədə əvəzləmədən sonra meydana çıxan Mixal Krmençik və Antonin Barak skandinaviyalıların qapılarına iki təhlükəli zərbə endirdilər. Matçın 49-cu dəqiqəsində isə çexiyalı Vladimir Çoufal komandasının mərkəz hücumçusu Patrik Şikə ötürmə etdi. Forvard sürətli zərbə ilə bu çempionatda özünün beşinci qolunu vurdu və bu turnirdə bombardirlərin lideri Kristiano Ronaldoyo çatdı. Beləliklə, Çexiya millisi hesab arasındakı fərqi azaldıb, oyunda intriqanı bərpa etdi.

Oyunun 78-ci dəqiqəsində baş məşqçi Kasper Yulmanın yetirmələri Paulsenin zərbəsi ilə hesabı 3 – 1-ə çatdırmağa yaxın oldular. Lakin Vaslik əla reaksiya nümayiş etdirərək buna imkan vermədi. 81-ci dəqiqədə Vaslik yenidən möhtəşəm oynadı və bu dəfə Melenin qapının yaxın küncünə vurduğu zərbəni ayağı ilə kənara çıxartdı. Oyuna əlavə edilmiş vaxtda çexiyalılar matçı overtayma daşımağa yaxın oldular. Lakin Barak əlinə düşən bu fürsətdən yararlana bilmədi və topu çərçivədən kənara vurdu. Beləliklə, Avro –2020-nin startında iki qarşılaşmada məğlub olan Danimarka Londonda keçiriləcək yarımfinala vəsiqəni təmin etdi.

UEFA-nın texniki müşahidəçisi Duşan Fiçel oyunun ulduzu seçilən Tomas Dileyni haqqında danışaraq deyib: “Çox vacib bir qol vurdu və meydanın mərkəzində çox iş gördü. Müdafiədən hücuma keçməyə şərait yaradan əsas oyunçu idi və bir neçə dəfə ideal şəkildə vəziyyətdən çıxdı. Ulduz yox, əsl işgüzar oyunçudur”.

Komandasının qələbəsinə son dərəcə mütəəsir olan Kasper Yulman deyib: “Əsl möcüzədir. Komanda ilə tanış olanda ilk gördüyüm iş bilirsiz nə oldu? Mən onlara “Uembli”nin şəklini göstərdim. Uşaqlara dedim ki, biz oraya Avropa çempionatının matçlarına gedəcəyik. Bu gün mənə elə gəldi ki, biz Danimarkada oynayırıq. Bakıda bizim azarkeşlərimiz komandaya fantastik dəstək nümayiş etdirdilər. Biz onlara son dərəcə minnətdarıq!”

Həqiqətən, skandinaviyalı azarkeşlər Olimpiya stadionunda fantastik bir mənzərə yaratdılar və komandalarını durmadan, yorulmadan dəstəkləyərək qələbəyə ruhlandırdılar. Bəzən oyuna tamaşa edən azərbaycanlı azarkeşlər də onların bu sevinc dolu çağırışlarına qoşulub Danimarka millisini dəstəkləyirdilər. Bu isə əsl idman bayramı idi, danimarkalı azarkeşlərin belə çox az bir vaxtda valeh olduqları və bunu səmimi sözlərlə “Baku, Azerbaycan veri qud!” deyib bəyan etdikləri möhtəşəm şəhərimizin ənənəyə çevrilmiş idman bayramlarından biri. Yaxşı yol Danimarka, yeni uğurlara doğru!

### İngilislər və ukraynalılar güclərini sınadılar

Ötən cümə günü gecə Avro – 2020-nin 1/4 final turunun Romada keçirilən sonuncu qarşılaşmasında “Uembli”yə vəsiqə alacaq sonuncu komanda müəyyənləşməli idi. Ya Ukrayna millisi növbəti sensasiyaya imza atıb ölkəsinin futbol tarixinin yeni qızıl səhifəsini yazmalı idi, ya da Qaret Sautqeytin komandası 25 illik fasilədən sonra Avropa çempionatının bu mərhələsində iştirakını təmin edib bir daha futbola “valideynlik” hüququnu sübut etməli idi.

Artıq qarşılaşmanın 4-cü dəqiqəsində baş məşqçi Andrey Şevçenkonun oyun planı özünün bütün əhəmiyyətini itirdi. İngiltərə millisi özünün qol hücumunu sadə və ideal şəkildə yerinə yetirdi. Rahim Sterlinq heç bir müqavimət görmədən sol cinahda göründü və bir anlıq fasilə verdi ki, Luk Şou rəqibin cərimə meydançasının dərinliyinə sıçrasın. Elə ki, müdafiəçi bunu edib rəqibin iki müdafiəçisini özü ilə apardı, Sterlinq cərimə meydançasının mərkəzinə hücum çəkdi və Şaparenkonu aldadıb əla ötürmə ilə kapitan Harri Keyni qapıçı ilə təkbətək çıxartdı. Keyn çətinlik çəkmədən Avropa çempionatında ikinci topunu qapıdan keçirdi və komandasını hesabda irəli çıxartdı. İngiltərə 1, Ukrayna 0.

Avro – 2020-nin yalnız 3 matçında qapılarından birinci top buraxan komandalar son nəticədə qalib gələ biliblər. Pley-offda yalnız İspaniya millisinə Xorvatiyaya qarşı matçda kambek etmək müyəssər olub. İngiltərə isə o komandalardandır ki, birinci top vurubsa ona qalib gəlmək mümkün deyil. Həm də unutmaq olmazdı ki, 2021-ci ildə qapısından cəmi 1 top buraxan İngiltərə millisi Avro – 2020-də heç bir top belə buraxmayıb.

Əslində, qarşılaşmanın başlanğıcında erkən qol Sautqeytin drujinası üçün də sürpriz oldu. İndi müdafiəyə çəkilmək də komandaya yaraşmırdı. Sadəcə rəqibin hücuma keçərkən buraxdığı səhvdən istifadə etmək və ya əks-hücumda yaxalayıb matçı qələbəyə qədər aparmaq kifayət idi.

Birinci hissənin sonunda sarı-mavilər təşəbbüsü ələ alandan sonra güman etmək olardı ki, ikinci hissədə lazımi müqavimət göstərib oyunu heç olmaya bərabərləşdirə bilərlər. Amma ingilis azarkeşlər komandalarından çoxdan baxımlı oyun və məhsuldar nəticələr gözləyirdilər. Deyəsən, zərbə altına Ukrayna millisi düşdü. İkinci hissənin 4 dəqiqəsi Ukrayna yığma komandasının bütün ümidlərini puç etdi. Oyun başlayan kimi ingilislər yenə erkən qol vurdular. Sarı-mavilər öz meydanlarında Keynə qarşı kobud oynadılar. Luk Şou topu hava zərbəsi ilə qapı önünə ötürdü Harri Maquayer başla ötürməni qola çevirdi.

Bu qoldan sonra Şevçenkonun komandası Londona gəlmiş nabələd turistlər kimi sanki tamam özünü itirdi. 50-ci dəqiqədə Keyn başla 3-cü qolu Buşanın qapısından keçirdi və dubla imza atdı. Bu qol vəziyyətinin bəzəyi Sterlinqin son dərəcə incə ötürməsi oldu və “Tottenhem”in forvardı ukraynalıların onun üçün “yaratdıqları sərbəst şəraitdən” istifadə edib məhsuldarlığını bir top da artırdı. 3-0 İngiltərə qalibiyyətini bir qədər də möhkəmləndirdi.

Artıq bu hesabdan sonra möcüzəyə – Ukraynanın xilasına inanmaq mümkün deyildi. Çünki bütün turnir boyu qapısından bir top belə buraxmayan komandaya 3 qol vurmaq fantastika olardı. Amma bunun əvəzində 63-cü dəqiqədə standart vəziyyətdən sonra İngiltərə komandasında yenicə meydana çıxmış Henderson Buşanın qapısından 4-cü qolu keçirdi. Bu bir daha göstərdi ki, Andrey Şevçenkonun məşqçi heyəti bu oyundan əvvəl standart vəziyyətlərdə müdafiənin təşkili ilə bağlı heç bir məşq keçirməmişlər. Çünki nəzərə alınmamışdı ki, hələ 2018-ci il Dünya çempionatında olduğu kimi bu Avroda da standart vəziyyətlər Qaret Sautqeytin komandasının əsas “silahlarındandır”. Ümumiyyətlə, ekspertlər Sauqeyti standartların xəstəsi hesab edirlər. Bu adam NBA basketbol matçlarında standart vəziyyətləri izləmək üçün İngiltərədən durub ABŞ-a gedir.

İkinci hissədə Ukrayna millisi qapıya cəmi iki, İngilislər isə 5 zərbə endirdilər. Sautqeytin yetirmələri azarkeşlərinin gözlədikləri hər şeyi cəmi 60 dəqiqədə meydanda göstərə bildilər. Bu müddətdə onlar turnirin əvvəlki 4 oyununda vurduqları qolların sayı qədər Ukrayna millisinin qapısına top vurdular. Qalan 30 dəqiqəyə yaxın vaxtda isə oyun sadəcə İngiltərə millisinin məşqini xatırladırdı. Elə buna görə də azarkeşlər öz komandalarının bu dəqiqələrdən sonra meydandakı bütün hərəkətlərini alqışlarla müşayiət edirdilər.

Qarşılaşmanın baş hakimi Feliks Brıx bəlkə ukraynalıların daha böyük hesabla məğlubiyyətinə imkan verməmək üçün, bəlkə də alman prinsiplərinə sədaqəti üzündən oyuna bir dəqiqə belə əlavə etmədi. Əslində buna ehtiyac da yox idi, hesab onsuz da Ukrayna millisinin məğlubiyyətinin miqyasını açıq göstərirdi.

Futbol mütəxəssislərinin əksəriyyətinin proqnozlaşdırdığı kimi bu cütün arasında intriqa son dərəcə zəif oldu. Baxmayaraq, Ukrayna Prezidenti Vladimir Zelinski matç öncəsi yarı zarafat, yarı gerçək söyləmişdi ki, futbolun “valideynlərinə” onun “uşaqları” nələrisə öyrədə bilərlər. Təəssüflər olsun ki, “uşaqların” bilik və bacarığı “valideynlərə” bir şey öyrətməyə yetmədi. Ona görə də İngiltərədən olan “valideynlər” “uşaqları” yaxşıca “kötəklədilər”.

Beləliklə, ingilislər Avro – 2020-də qapılarından bir top belə buraxmadan, Bakı turunun qalibi Danimarka yığma komandası ilə “Uembli”də baş tutacaq yarımfinal matçına hazırlaşmaq üçün İngiltərəyə dönürlər.

İndi Qaret Sautqeyt öz tənqidçilərinə çəkinmədən keçirdikləri qarşılaşmaların nəticələrinə daha diqqətlə nəzər salmağı məsləhət görə bilər. Onun rəhbərliyi altında İngiltərə millisi ikinci nəhəng beynəlxalq turnirdə ardıcıl olaraq yarımfinala yüksəlir. 2028-ci il Dünya çempionatından sonra indi də Avro – 2020-də yarımfinalda. Bilirsiniz axırıncı dəfə İngilislər nə vaxt belə uğura imza atıblar? 50 il bundan əvvəl – 1966-cı il Dünya çempionatında qalib gəldikdən sonra “şirlər” Avro 1968-də üçüncü





oldular. İndiki turnirdən əvvəl isə Avropa çempionatının yarımfinalında 25 il əvvəl – 1996-cı ildə olublar.

2000-ci ildə İngiltərə millisinin heyətində çıxış edən istedadlı futbol ulduzları indikindən çox idi ki, az deyildi. Harri Nevill, Ferdinand, Terri, Kempbell, Eşli Koul, Cerard, Lempard, Makmanaman, Runi, Oven... Ancaq bu ulduzlar komandası böyük turnirin yarımfinalına belə yüksələ bilmədilər. Baxmayaraq, onları Sven-Yoran Eriksen və Fabio Kapello kimi nəhənglər məşq etdirirdilər.

Sautqeytin və onun yetirmələrinin bu tarixi qələbəsi İngiltərənin kütləvi informasiya vasitələrində çox yüksək qiymətləndirilir. Hətta İngiltərədə keçirilmiş Avro – 1996-dan sonra yazılan “Futbol evə qayıdır” (Football coming home) mahnısı belə indi Böyük Britaniyada yenidən ən populyar hitə çevrilib. Ukrayna üzərində qələbədən sonra ingilis fanatları onu Romanın küçələrində belə böyük coşqu ilə oxuyublar.

Məşhur ulduz Alan Şirer BBC-nin efirində öz sevincini belə təsvir edir: “Nəsə qeyri-adi hadisə baş verir. Biz turnirə çox ləng başladıq, ancaq oyundan oyuna gücləndik. Başım mənə deyir sakitləş, lakin qəlbim göylərdə uçur”!



**İlqar RÜSTƏMOV,**
**“Xalq qəzeti”**